**Teymur Kərimli**
*akademik*

## "Molla Nəsrəddin" – 10 cildliyinin X cildinə ön söz

1906-1931-ci illərdə Azərbaycanın mütəfəkkir yazıçı-dramaturqu və publisisti Cəlil Məmmədquluzadənin (1869-1932) baş redaktorluğu ilə Tiflisdə, Təbrizdə və Bakıda nəşr edilmiş "Molla Nəsrəddin" jurnalı təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası və islam Şərqi üçün misilsiz əhəmiyyət daşıyan, irəli sürdüyü kəskin sosial-psixoloji, iqtisadi-siyasi, mədəni-mənəvi, humanitar problemlərlə, həqiqi sənət əsəri olan nəsr və nəzm örnəkləri, müasir mövzulu karikaturları ilə bu gün də öz aktuallığını itirməyən şəkilli satirik bir toplu olmuşdur.

Əksər nömrələri ərəb əlifbası ilə işıq üzü görən bu jurnal, Azərbaycanda gedən əlifba islahatları ilə bağlı olaraq, əski əlifbanı bilməyən həmvətənlərimiz, xüsusən gənc nəsil üçün əlçatmaz olduğundan, onun milli-mənəvi dəyər kimi çağdaş nəslə çatdırılmasına ehtiyac yaranmışdı. Bu səbəbdən də Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Mətnşünaslıq şöbəsində keçən yüzilliyin ikinci yarısından etibarən uzun illər boyu jurnalın tam mətni ərəb əlifbasından kiril əlifbasına transfoneliterasiya edilmişdir.

Sovet hökumətinin Azərbaycanın klassik irsinə məlum münasibəti nəticəsində 12 cildde çapı nəzərdə tutulan jurnalın yalnız bir cildi kiril əlifbası ilə işıq üzü görmüş, Moskvanın qarət etdiyi sərvətlərimizdan vəsait ayrılmadığına görə makinadan çıxmış əlyazması uzun illər Əlyazmalar İnstitutunun dəmir seyflərində toz-torpaq içində yatıb qalmışdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra gənc dövlətin qarşılaşdığı maliyyə çətinliklərinə baxmayaraq, 1996-2011-ci illər ərzində jurnalın tam mətni latın qrafikalı Azərbaycan əlifbası ilə 9 cilddə 700 nüsxə sayda, rəngli illustrasiyalarla nəfis şəkildə çap edilmiş və mollanəsrəddinsevərlərin istifadəsinə verilmişdir. Əlbəttə, əhalisi artıq 10 milyona yaxınlaşan, 100 minlərlə ziyalı ordusuna, vətənpərvər, millətsevər gənclərə malik olan suveren Azərbaycan və xaricdə yaşayan milyonlarla azərbaycanlı üçün bu rəqəmin çox cüzi olduğu heç kimə sirr deyil. Bu səbəbdən "Şərq-Qərb" nəşriyyatının vətənpərvərlik missiyası sayəsində jurnalın 10 cilddə yeni nəşrinin həyata keçirilməsi qərara alınmışdır.

Oxucuların diqqətinə təqdim edilən sonuncu - X cildə 1929-cu ilin 15-51-ci, 1930-cu ildə nəşr olunmuş cəmi 31 sayı, 1931-ci ildə çıxmış 2 sayı – cəmi 70 nömrə salınmışdır.

1929-cu il – həftəlik "Molla Nəsrəddin" jurnalının müntəzəm olaraq tam komplektde çıxmasının son ilidir. Hiss olunur ki, artıq Mollanın ətrafında yaradıcılıq qabiliyyəti olmayan və buna görə də yaradıcı insanlara nəinki paxıllıq, hətta nifrət edən proletar "yazarların" və bürokrat məmurların nəfəskəsən halqası getdikcə daralır...

Təbii şəkildə özünümüdafiəyə can atan Molla özü də yeganə silahı olan satiranı və sarkazmı bədii sözün qüdrəti ilə itiləyərək son hücuma keçdiyinin, həm də qeyri-

bərabər döyüşdə məğlubiyyətin qaçılmaz olduğunun fərqinə varır. Quruluşun adi vətəndaşa əzab vermək alətinə çevrilmiş bürokratiyası, savadsız rəhbərlərin səriştəsizliyi, öz mənafeyini hər şeydən üstün tutan bolsevik idarəetmə mexanizminin... mübarizənin perspektivini Molla və onun məsləkdaşları üçün sonu görünməyən mübhəm bir zülmətə çevirir.

Bu illərdə seçilən rubrikalar içində maraq doğuranlardan biri də "Molla Nəsrəddin"in təqvimi"dir. Bu təqvim vasitəsilə Mirzə Cəlil sarkazmın yeni zirvəsini təqdim etmiş olur. Bir neçə örnəyə nəzər yetirək:

"Aprel 11 pəncşənbə. Zilqədə ayının biridir. Ərəbistanda bu gün iki yaşlı dəvələri minərlər, bizlərdə mollalar altmış iki yaşlı məşədiləri minərlər.

Aprel 12 cümə. 1919. Bakı Darülfününun açılması. 1929. Bakıda təbrizlilər məscidinin təmiri.

Aprel 13 şənbə. Zilqədə ayının üçüncü günüdür. Bu günün dörd yüz otuz səkkiz rikət nafilə namazı var".

Molla təkcə öz dindaşlarının deyil, eyni zamanda başqa dinlərə məxsus insanların da problemlərini satirik sözün gücü ilə çözməyə çalışır və bununla da Azərbaycan humanist fikrinin layiqli davamçısı olduğunu bir daha sübuta yetirmiş olur. Nəzərdən kecirdiyimiz həftəlik "təqvim"in sonrakı günlərina baxaq:

"Aprel 14. Bazar. Bu gün bazar günüdür, bu gün keşişlərin bazarıdır, bu gün xaçpərst aləmində sərxoşluq günüdür".

Ardınca dünya miqyasına çıxan Molla yazır:

"Aprel 15. Bazar ertəsi. 1882. Darvin alimin vəfatı. İndi cəhənnəmdə cəzasını çəkir. Rəhmətliyin oğlu: müsəlmanlığı qəbul etmək əvəzinə ömrünü meymunlarla keçirtdi".

Nəzərə alsaq ki, bu günün özündə belə Darvinin təkamül nəzəriyyəsini qətiyyətlə inkar edən, insanın meymundan əmələ gəldiyini qəbul etməyən alimnümalar var, "Molla Nəsrəddin"in 90 il bundan öncə yazdıqlarının hələ də aktual olaraq qaldığını söyləməyə ehtiyac gəlmir.

Satira və sarkazmla yanaşı, Mollanın təqvimlərində qiymətli tarixi məlumatlar da tapmaq mümkündür. Məsələn, jurnalın nəşrə başlamasının dəqiq ilini, ayını və gününü nəzərdən keçirdiyimiz təqvimdə tapırıq:

"Aprel 16 tək. 1906. Tiflisdə "Molla Nəsrəddin" jurnalının nəşri və indiki halda bir nəfər yalançı kommunist yoldaşın o vaxt qadın məsələsi barədə "Molla Nəsrəddin"ə hücumu".

Satirik şeirə yüksək dəyər verən, bunu "şeir bülbülləri"nə qarşı qoyan jurnalın son nömrələrində də bu ənənə davam etdirilir, Sabirin yadigarı, qocaman şair Əli Nəzmi yenə də "Məşədi Sijimqulu", "Kefsiz" və başqa imzalarla öz islahedici satirasını "Molla Nəsrəddin" səhifələrindən əsirgəmir. Şairin oynaq və axıcı poetik dili ürəkləri fəth edir:

*Millətə əfsanəmiz faidəmənd olmadı,*
*Fikrimizi anlayan bircə həpənd olmadı.*
*Atladım ayroplana, seyr elədim Qafqazı,*
*Ləzgi, noğay, türk, tatar bir toyuğun çolpası.*
*Cümləsi din düşkünü, həpsi həyatın pası,*

*Sözlərim oldu ağu, hec kəsə qənd olmadı,*
*Fikrimizi anlayan bircə həpənd olmadı.*

Beləliklə, "Şərq-Qərb" nəşriyyatının yüksək səviyyədə hazırladığı oncildlik "Molla Nəsrəddin" geniş ictimaiyyətə təqdim olunur. Ümidvariq ki, bu nəşr xeyirli və uğurlu olacaq!